# Mətbuat tarixi və publisistika şöbəsi

*Mətbuat tarixi və publisistika şöbəsinin əməkdaşları* 2018-ci ildə bir problem-mövzu üzrə elmi-tədqiqat işlərini həyata keçiriblər: "Molla Nəsrəddin" jurnalının ensiklopediyası"nın nəşrə hazırlanması. Şöbənin qüvvəsi ilə 300 məqalə yazılıb. Nəzərdə tutulan kollektiv iş tam həcmdə yerinə yetirilib.

Şöbənin müdiri (hazırda prof. V.Əhməd) *f.e.d., prof. Asif Rüstəmli* il ərzində 2 tədqiqat işini: Ensiklopediyanın mətnləri üzərində işləri davam etdirib və "Mirzə Bala Məhəmmədzadənin həyatı və mühiti" monoqrafiyasını nəşr etdirib. Xaricdə "Səttar Xanın silahdaşı" (İran, Qum şəhəri, "Nəvidi-Hikmət", 1397 (2018, 2005) kitabı çap olunub. Alimin il ərzində 4 kitabı nəşr olunub: "Ədəbi redaktənin əsasları" (Bakı, "Gənclik", 216 s.), "Zirədən başlanan yol: Mirzə Bala Məhəmmədzadənin həyatı, yaradıcılığı və mühiti" (B. "Gənclik", 280 s.), "Cəfər Cabbarlı və milli istiqlal hərəkatı" (B. "Gənclik", 2018, 192 s.), "Ədəbiyyatşünaslıq elminin məbədi" akademik İ.Həbibbəyli ilə (B. "Ozan", 2018, 484 s.). A.Rüstəmli "Mirzə Bala Məhəmmədzadə. İstiqlal mücadiləsi" (2018, 448 s.) kitabının tərtibçisi, Mir Cəlalın "Ədəbi-tənqidi məqalələr" kitabına "Ədəbi tənqid mənəviyyat məcrasında" adlı ön sözün müəllifidir (B, Milli kitabxana, 2018, 3-35).

Alim Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin AXC-nin 100 illiyinə həsr edilmiş "Mədəniyyət. Problemlər, perspektivlər" konfransının materiallarında "Mirzə Bala Məhəmmədzadə" (B, 2018, s.37-42), "Mədəniyyət.Az" jurnalında "Cümhuriyyət dövrünün fədakar tədqiqatçısı" (B, 2018, №2, s.66-68), "Cəfər Cabbarlının Cümhuriyyət dövrü yaradıcılığı" ("Mədəniyyət.Az", B, 2018, №2, s.90-97). "Azərbaycan" jurnalında (2018, №4) "Bir görüşün tarixçəsi", "Ulduz" jurnalında "Cümhuriyyət dövrünün ilk məcmuəsi" (2018, №6)və başqa məqalələrini çap etdirib.

A.Rüstəmli "AXC dövründə mətbuat" adlı məqaləsini "AMEA və Fövqəladə Hallar Nazirliyinin birgə keçirdiyi "Azərbaycan Respublikası- Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" adlı elmi-praktik konfransda (FHN Akademiyası, B, 2018, 27 aprel), "Mirza Bala Mehmetzade ve Azerbaycan Cumhuriyeti devrinde medeniyet meseleleri" məqaləsi "Uluslararası Türk Kültürü ve Medeniyeti Kongresi"ndə (05-08 eylül, 2018. Burhaniye TC, s.237-238), "Azərbaycanın soyqrımı mətbuatda" mövzusunda Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda (26 mart 2018) məruzələr edib.

*Baş elmi işçi, f.e.d. Elçin Mehrəliyev* "Vilayət Quliyev və elmi publisistika" və "Multikultural mühit və ədəbiyyat" kitabını nəşrə hazırlayıb. O, il ərzində müxtəlif mətbuat orqanlarında ("Azərbaycan" jurnalı, "Respublika" qəzeti və "Ədəbiyyat qəzeti"ndə) məqalələr çap etdirib.

*F.ü.f.d. Gülbəniz Babayeva* "Molla Nəsrəddin" ədəbi hərəkatı və mollanəsrəddinçilik" mövzusunda elmi-tədqiqat işini başa çatdırıb. Onun 4 konfrans materialında məqaləsi çap olunub ("Molla Nəsrəddin" jurnalının demokratik dövlət quruculuğu uğrunda fəal mübarizəsi. AXC-100: Müsəlman Şərqində ilk parlamentli respublika. Beynəlxalq elmi konfrans. BDU, 21-23 may 2018; "Molla Nəsrəddin" jurnalının demokratik dövlət quruculuğu uğrunda fəal mübarizəsi. (Tezis). AXC-100: Müsəlman Şərqində ilk parlamentli respublika. Beynəlxalq elmi konfrans. BDU, 21-23 may 2018; "Molla Nəsrəddin" və Xalq Cümhuriyyəti. (Tezis) BDU. "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda Beynəlxalq elmi konfrans. 21-22 dekabr 2018. "Molla Nəsrəddin" və Xalq Cümhuriyyəti (BDU. "Dünya azərbaycanlıları: tarix və müasirlik" mövzusunda Beynəlxalq elmi konfrans. 21-22 dekabr 2018).

G.Babayeva 11 qəzet və jurnalda məqalə çap etdirib ("Molla Nəsrəddin" və Qarabağ mövzusu. "Ədəbiyyat məcmuəsi", XXXII cild. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Əsərləri. Bakı, "Elm və təhsil", 2018; "Molla Nəsrəddin"də işlədilən klassik şeir şəkilləri (qəzəllər). "Poetika.izm", 2018; "Molla Nəsrəddin" jurnalında parodiya və perifrazlar. "Azərbaycan ədəbiyyatşünaslığı", 2018, №2; "Molla Nəsrəddin" və folklor". "Filologiya və sənətşünaslıq". 2018, №2; "Heydər Əliyev "Molla Nəsrəddin" və mollanəsrəddinçilər haqqında". "525-ci qəzet", 13 noyabr 2018).

*F.ü.f.d. Rauf Sadıxov* "Hacı İbrahim Qasımovun publisistikası" adlı tərtib işini yerinə yetirib, "Molla Nəsrəddin" jurnalının ensiklopediyası" üzərində çalışıb. F.ü.f.d. Aynurə Paşayeva il ərzində 28 çap işini yerinə yetirib, yerli və beynəlxalq elmi konfranslarda fəal iştirak edib (Azərbaycan, Türkiyə, Ukrayna, Rusiya), 4 saytda məqaləsi yer alıb. A.Paşayevanın "Azərbaycan" (№1), "Filologiya məsələləri" (№8), "Bakı Qızlar Universitetinin "Elmi Əsərləri"ndə (№3), bunlardan başqa 4 elmi jurnalda (Azərbaycan, Türkiyə, Ukrayna, Rusiya), habelə bir impakt faktorlu jurnalda ("Научный журнал", 2018, №6 (29) məqaləsi çap olunub. Onun bir kitabı isə Latviyada çapdan çıxıb ("Bilim ve Gazetecilik". Riga, Latviya, LAP LAMBERT Academic Publishing, 2018, 69 s). A.Paşayeva bir tərcümə əsərini – "Koko" "Plyus bədii yaradıcılıq" ədəbi almanaxda (Bakı, Elm və təhsil, 2018, s.416-420) çap etdirib. Müəllif il ərzində qrant layihəsinin ("Mənim ilk qrantım") qalibi olub, 13 təltif – 6 sertifikat yerli konfranslardan, 6 sertifikat beynəlxalq konfranslardan qazanıb, 14 noyabr 2018-ci ildə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında İnstitutun direktoru, akademik İsa Həbibbəyli tərəfindən "İlin gənc alimi" diplomuna layiq görülüb.

*Elmi işçi Gülnar Qasımlı* 2018-ci ildə "Ədəbiyyat məcmuəsi"nin yaranması və inkişaf məsələləri" və "Molla Nəsrəddin" jurnalının ensiklopediyası" tədqiqatları üzərində çalışıb, 7 kitabda yazıları ilə çıxış edib və Latviyada 1 kitabı çapdan çıxıb (Гюльнар Касумлу. Путь развития, особенности жанра поэмы в литературе Азербайджана. Lambert Academic Publishing. Latviya, Riqa, 2018, 123 s). Bundan başqa, onun Astana və Ankara şəhərlərində də yazıları dərc olunub. Müəllif il ərzində 27 qəzet və jurnalda, 3 konfrans materialında yazılarını çap etdirib.

*Təhminə Vəliyeva* il ərzində Prezident fərmanlarından irəli gələn 10 məqalə çap etdirib. Onlardan 6 məqaləsi və 4 tezisi konfrans materiallarında çap edilib (Əhməd bəy Ağaoğlu yaradıcılığında demokratik dövlət quruculuğu bir ideal kimi. (Məqalə). AXC-100: Müsəlman Şərqində

ilk parlamentli respublika. Beynəlxalq elmi konfrans. BDU, 21-23 may 2018; “Nitq etiketi, etika və ünsiyyət”. ADPU. “Fənlərin tədrisi metodikası: müasir yanaşmalar” mövzusunda magistrantların I Respublika Elmi konfransının materialları. 3-4 may 2018,; “Üç mədəniyyət” Əhməd bəy Ağaoğlu şərhində”. BDU, “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda Beynəlxalq elmi konfrans, 21-22 dekabr 2018), xaricdə bir kitabı ingilis dilində çap olunub (“Speech etiquettes in Azerbaijani and Azerbaijani language teaching”, Latviya, Riqa, LAP Lambert Academic Publishing, 84 s). Müəllif 4 jurnalda (“Filologiya məsələləri”, №6, №15; “Dil və ədəbiyyat” №1 (105); “Azərbaycan dili və ədəbiyyat tədrisi” №1 (255); Bakı Qızlar Universitetinin “Elmi Əsərləri” №2 (34), habelə, 8 konfrans materialında məqalələrini çap etdirib.